<table>
<tr><td rowspan="8">Ümumi məlumat</td><td>Fənnin adı, kodu<br>və kreditlərin sayı</td><td>DSN131, Dizayn əsasları-1, 6 AKTS</td></tr>
<tr><td>Departament</td><td>Memarlıq və dizayn departamenti</td></tr>
<tr><td>Proqram (bakalavr, magistr)</td><td>Bakalavr</td></tr>
<tr><td>Tədris semestri</td><td>2025/2026-cı tədris ilinin payız semestri</td></tr>
<tr><td>Fənni tədris edən müəllim (lər)</td><td>Günay Məmmədova<br>Fatma Ataşkaya</td></tr>
<tr><td>E-mail:</td><td>gmammadova@khazar.org<br>fatma.kaya@khazar.org</td></tr>
<tr><td>Mühazirə otağı/Cədvəl</td><td>Neftçilər korpusu, 109-cu otaq</td></tr>
<tr><td>Məsləhət saatları</td><td>Tələbələrlə razılaşdırılan vaxtlarda</td></tr>
<tr><td>Prerekvizitlər</td><td colspan="2">-</td></tr>
<tr><td>Tədris dili</td><td colspan="2">Azərbaycan</td></tr>
<tr><td>Fənnin növü (məcburi, seçmə)</td><td colspan="2">Məcburi</td></tr>
<tr><td>Dərsliklər və əlavə ədəbiyyat</td><td colspan="2">1. Mikayılova M.N. Məkan formalarının ahəngdarlıq vasitələri. Metodik vəsait.Bakı. 2003;<br>2. Nağıyev N.H., Abbasova Ş.A.. Ağamalıyeva İ. və Məmmədxanova L.İ. “Layihələndirmənin əsasları” dərslik. Bakı-2014;<br>3. Mikayılova M.N., Tağıyeva V.A Memarlıq kompozisiyasının əsasları. Metodik vəsait. Bakı. 2005;<br>4. Степанов А.В. Объемно-пространственная композиция: учебное пособие, М. 2003;<br>5. Устин В. Композиция в дизайне. М. 2007.</td></tr>
<tr><td>Kursun təsviri</td><td colspan="2">Fənnin tədrisi dizaynda layihələndirmənin, kompozisiyanın kateqoriya və prinsipləri haqqında anlayışı açıqlayan nəzəri və təcrübi hissədən ibarətdir. Fənnin tədrisində məzmun baxımından - həcm-fəza kompozisiyasının dizayn obyektinin və layihəsinin yaradılması sistemidir. Uyğun nəzəri və praktiki bilik və bacarıqlar çərçivəsində kompozisiyanın dizayn nailiyyət vasitəsinin forma birliyinin formasının ümumi qanunlarını və onun məzmununu öyrədir.</td></tr>
<tr><td>Kursun məqsədləri</td><td colspan="2">Fənnin məqsədi:<br>Fənnin öyrənilməsində məqsəd bakalavr təhsil səviyyəsində tələbənin dizayn qrafikası və dizayn layihələndirməsi məsələləri ilə əlaqədar fəaliyyətinin kateqoriyaları və prinsipləri haqqında əsas anlayışların formalaşmasından ibarətdir. Fənnin tədrisinin məqsədlərindən biri də dizaynda estetik zövqün sosial xarakteri, bədii ideyalar və gözəllik anlayışı olan cəmiyyətə üstünlük təşkilini anlamaq, eyni zamanda bu fənni öyrənmək insanı hadisələri estetik qiymətləndirmə bacarığı inkişaf etdirməklə yanaşı kompozisiyanın kateqoriyaları və əsas qanunlarını, yerli şəraitə, iqtisadi tələbəta və funksional proseslərə uyğun həcmlərin və məkanların təşkili, konstruktiv quruluşun ifadəsi və onun fiziki xassələrinin həcmi planlaşdırma həllini bilmək dizaynerlər üçün zəruridir .</td></tr>
</table>

<table>
<tr><td rowspan="1">Tədrisin (öyrənmənin) nəticələri</td><td colspan="3">Fənnin ümumi tədrisi prosesində tələbələr:<br>bilməlidirlər:<br>Tələbənin kompozisiya və layihələndirmə qrafikası barədə dünya görünüşünün və abstrakt düşüncənin inkişafını;<br>Bədii düşüncənin yaradıcılıq ifadəsinə kömək edən müxtəlif obyektlərin dizayn həllində kompozisiya məsələləri haqqında tam təsəvvürün formalaşmasını;<br>Kompozisiya və layihələndirmə qrafikasına dair fərdi imkanların öyrənilməsi və adekvat qiymətləndirilməsini;<br>Kompozisiya quruluşlarının müasir metodlarının nəzəri əsaslarını;<br>Tələbə təfəkküründə zəruri olan tam yararlı bədii müəllif kompozisiya həllinin reallaşdırılması üçün zəruri olan praktiki təcrübə və üsullarını.<br>bacarmalıdırlar:<br>Yaradıcılıq tapşırıqlarının praktiki təcrübə səriştələrinin formalaşmasını;<br>Dizayn həllində kompozisiyanın bədii ifadə vasitələrinin öyrənilməsi və tədbiqini;<br>Kompozisiya ilə bağlı olan peşəkar təfəkkür, bədii yaradıcılıq metodlarını; Dizayn həllində bədii-qrafik səriştəsinin formalaşmasını;<br>Verilən tapşırıq əsasında qurğunu mərhələli şəkildə layihələndirməyi;<br>Maket tərtib etməyi.</td></tr>
<tr><td rowspan="4">Tədris metodları</td><td>Mühazirə</td><td colspan="2">x</td></tr>
<tr><td>Qrup müzakirəsi</td><td colspan="2">x</td></tr>
<tr><td>Praktiki tapşırıqlar</td><td colspan="2">x</td></tr>
<tr><td>Praktiki məsələnin təhlili</td><td colspan="2">x</td></tr>
<tr><td rowspan="7">Qiymətləndirmə</td><td>Komponentləri</td><td>Tarix/son müddət</td><td>Faiz (%)</td></tr>
<tr><td>Davamiyyət</td><td></td><td>5</td></tr>
<tr><td>Fəallıq</td><td></td><td>15</td></tr>
<tr><td>Tapşırıq</td><td></td><td>15</td></tr>
<tr><td>Aralıq imtahanı</td><td></td><td>30</td></tr>
<tr><td>Final imtahanı</td><td></td><td>35</td></tr>
<tr><td>Yekun</td><td></td><td>100</td></tr>
</table>

<table>
<tr><td>Qaydalar<br>(Tədris siyasəti və davranış)</td><td colspan="3">Tapşırıq<br>Fənn müəllimi tərəfindən əsasən praktiki tətbiq olunacaq mövzular üzrə semestr müddətində bir dəfə veriləcək. Tələbələr tapşırığı fərdi şəkildə hazırlamalı və dərsdə təqdim etməlidir. Məzmunundan asılı olaraq, tapşırıqlar qrafik formada tələb olunacaqdır.<br>Praktiki tapşırıqlar mütləq tələbə tərəfindən təqdim edilməsi tələb olunur. Bu tapşırığın məqsədi gələcək dizaynerlərin təqdimetmə, qısa müddətdə kiçik araşdırma aparmaq və dizayn formalarının maket şəkilində tərtib etmə vərdişlərinə yiyələnməsidir.<br>Aralıq imtahanından əvəl oktyabr ayı ərzində tapşırıq təhvil verilməlidir. Sonuncu dərs həftəsindən sonra təhvil vermək üçün əlavə vaxt verilmir. Tələbələrin praktiki iş təhvili imtahan günü təyin olunur, qiymətləndirmə departamentin təyin etdiyi komissiya tərəfindən aparılır.<br>Qeyd: Praktiki işlər planşet üzərində hazırlanmalıdır.<br>İstisna: Fakültə dekanlığına tələbə öncədən üzrlü səbəbdən (ailəvi vəziyyət və səhhətlə bağlı) təslim işində iştirak edə bilməyəcəyi haqda məlumat vermişsə, və ya sonra bununla əlaqədar hər hansı bir sənəd (ərizə və ya arayış) təqdim edibsə, yalnız bu halda tələbə tapşırığı gec təslim edə bilər.<br>Fəallıq<br>Fəallığa görə veriləcək 15 bal tələbənin müzakirələrdə iştirakına görə veriləcək.<br>Davamiyyət<br>Dərsə davamiyyətə görə verilən maksimum bal 5 baldır. Balın miqdarı əsasən: tələbə semestr ərzində fənn üzrə bütün dərslərdə iştirak etdiyi halda ona 5 bal verilir. Fənn üzrə semestr ərzində buraxılmış dərs saatlarının ümumi sayı normativ 25%-dən müəyyən olunmuş (xəstəlik, ailə vəziyyəti və s.)həddən yuxarı olduğu halda tələbə imtahan sessiyasına buraxılmır və onun haqqında müəyyən qərar qəbul edilir.<br>İmtahanlar<br>Aralıq (30 bal) və final (35 bal) imtahanında dəyərləndiriləcək.<br>Aralıq imtahanı sentyabır və oktyabər ayında tədris olunan mövzular üzrə verilən praktiki tapşırığın, final imtahanı noyabr və dekabr ayında tədris olunan mövzular əsasında praktiki tapşırığının təslimi keçiriləcəkdir.<br>Fənni bitirmək qaydası<br>Tələbənin biliyi maksimum 100 balla qiymətləndirilir. Kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60 % və daha yuxarı hesab edilir. Kəsri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrarən götürə bilər.<br>Tələbənin davranış qaydaları<br>Tələbə Universitetin daxili nizam-intizam qaydalarını pozmaq və mobil telefondan istifadəsinə icazə verilmir.</td></tr>
<tr><td colspan="4">Cədvəl</td></tr>
<tr><td>Həftə</td><td>Tarix</td><td>Fənnin mövzuları</td><td>Dərslik/Tapşırıqlar</td></tr>
<tr><td>1</td><td></td><td>Dizaynda kompozisiya, layihələndirmə qrafikası və öyrənilməsinin məqsəd və məsələləri.<br>Keçirilən mövzu əsasında, A4 vərəqdə sadə həndəsi fiqurlardan istifadə etməklə axtarış eskizlərinin çəkilməsi;</td><td>Mühazirə mövzuları (prezentasiya 1)</td></tr>
</table>

| | | | |
|---|---|---|---|
| 2 | | **Kompozisiyanın ifadəlilik vasitələri. Dizaynda kompozisiyanın növləri. Frontal (müstəvi) və həcmi kompozisiyalar.** Sadə həndəsi fiqurlar əsasında front kompozisiyanın tərtib edilməsi;<br>Sadə həndəsi fiqurlardan istifadə etməklə axtarış eskizlərinin çəkilməsi; | Mühazirə mövzuları (prezentasiya 2)<br>Mikayılova M.N. Məkan formalarının ahəngdarlıq vasitələri.səh.3-15 Metodik vəsait.Bakı. 2003; |
| 3 | | **Kompozisiyada simmetriya, dissimmetriya və asimmetriya.**<br>Sadə həndəsi fiqurlar əsasında front kompozisiyasının qəbulu;<br>Sadə həndəsi fiqurlar əsasında simmetrik kompozisiyanın tərtib edilməsi; Sadə həndəsi fiqurlar əsasında disimmetrik kompozisiyanın tərtib edilməsi;<br>Sadə həndəsi fiqurlar əsasında asimmetrik kompozisiyanın tərtib edilməsi; | Mühazirə mövzuları (prezentasiya 3)<br>Mühazirə mövzuları (prezentasiya 4) |
| 4 | | **Kompozisiyada təzad, nüans prinsipləri.**<br>Həndəsi və ya abstrakt formalar əsasında nüans kompozisiyanın tərtib edilməsi; Sadə həndəsi fiqurlar əsasında həcm kompozisiyasının axtarış eskizlərinin çəkilməsi; | Mühazirə mövzuları (prezentasiya 5) |
| **5** | | **Kompozisiyada eynilik və oxşarlı prinsipləri.**<br>Rəngi və faktura üzrə təzadlı kompozisiyanın tərtib edilməsi;<br>Sadə həndəsi fiqurlar əsasında həcm kompozisiyasının axtarış eskizlərinin davamı; | Mühazirə mövzuları (prezentasiya 6)<br>3. Nağıyev N.H., Abbasova Ş.A.. Ağamalıyeva İ. və Məmmədxanova L.İ. “Layihələndirmənin əsasları” dərslik. Bakı-2014; s.68-118 |
| 6 | | **Kompozisiyada formanın dinamikası** Sadə həndəsi fiqurlar əsasında dinamik kompozisiyasının tərtib edilməsi; Sadə həndəsi fiqurlar əsasında həcm kompozisiyasının<br>maketinin qurulması; | Mühazirə mövzuları (prezentasiya7) |
| **7** | | **Kompozisiyada formanın statikası.**<br>Sadə həndəsi fiqurlar əsasında statik kompozisiyasının tərtib edilməsi; Sadə həndəsi fiqurlar əsasında həcm kompozisiyasının maketinin qurulması; | Mühazirə mövzuları (prezentasiya 8) |
| **8** | | **Aralıq imtahanı** | |
| **9** | | **Kompozisiyada ritm və metr.**<br>Sadə həndəsi fiqurlar əsasında ritmik və metrik kompozisiyasının tərtib edilməsi; Sadə həndəsi fiqurlar əsasında front və həcm | Mühazirə mövzuları (prezentasiya 9) |

| | | | |
|---|---|---|---|
| | | kompozisiyasıyaların qəbulu və kompanovkası. | |
| **10** | | **Kompozisiya-bədii formayaranışının əsasi kimi.**<br>Sadə həndəsi fiqurlar əsasında dərinlik fəza kompozisiyasının tərtib edilməsinin davamı; | Mühazirə mövzuları (prezentasiya10) |
| **11** | | **Dizaynda kompozisiyaların növləri.**<br>Sadə həndəsi fiqurlar əsasında dərinlik fəza kompozisiyasının eskizinin təsdiqi; | Mühazirə mövzuları (prezentasiya 11) |
| **12** | | Dərinlik fəza kompozisiyalarının növləri.<br>Sadə həndəsi fiqurlar əsasında dərinlik fəza kompozisiyasının maketinin qurulması; | Mühazirə mövzuları (prezentasiya 12) |
| **13** | | **Kompozisiyada rəng və işıq.**<br>Kompozisiyasıyaların planşetdə tərtibatı | Mühazirə mövzuları (prezentasiya 13) |
| **14** | | **Kompozisiyada nisbətlər və mütənasiblik. Kompozisiya tarazlığı anlayışı**<br>İşlərin tərtibatı. | Mühazirə mövzuları (prezentasiya 14) |
| **15** | | **Kompozisiya tarazlığı anlayışı.**<br>İşlərin yoxlanılması.<br>İşlərin tamamlanması və qəbulu. | Mühazirə mövzuları (prezentasiya15) |
| **Final imtahanı** | | | |

**Təsdiq edir:** Dos. Abbasova Ş.A.
Memarlıq və dizayn departamentinin müdiri